# İSGƏNDƏROV FAMİL İSGƏNDƏR OĞLU



15 may 1975-ci ildə Bakı şəhərində doğulmuşdur. 1991-ci ildə 157 saylı orta məktəbi bitirmişdir. 1993-cü ildə Binəqədi rayon Hərbi Komissarlığı tərəfindən Milli Ordu sıralarına çağırılmış, Ağdərə və Tərtər bölgələrində gedən döyüşlərdə iştirak etmişdir. Murovdağın geri qaytarılması zamanı ayağından yaralanmışdır. 1995-ci ilin martında dövlət çevirilişinə cəhdin qarşısını alan dəstənin tərkibində igidlik göstərmişdir. Martın 17-də döyüş yoldaşlarını xilas edərkən ağır yaralanan Familin həyatını xilas etmək mümkün olmamışdır. Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə İsgəndərov Famil İsgəndər oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Təhsil aldığı 157 saylı orta məktəb onun adını daşıyır. Məktəbdə büstü qoyulmuşdur. Yaşadığı binanın önünə xatirə lövhəsi vurulmuşdur. Dağıstan Muxtar Respublikası Qasımkənd rayonunun Uluqadağ kəndindəki orta məktəb onun adını daşıyır.